# AZƏRBAYCANDA KİTABXANA MƏDƏNİYYƏTİNİN İNKİŞAFI FONUNDA AZƏRBAYCANIN MÜSTƏQİLLİK TARİXİ VƏ HEYDƏR ƏLİYEV İRSİNİN RƏQƏMSALLAŞDIRILMASI

***Günel Vaqif qızı Bağırova-Hüseynova***

*AMEA MEK-in Heydər Əliyev və*
*Azərbaycan dövlətçiliyi şöbəsinin müdiri*
*Yasamal rayonu, Hüseyn Cavid pros.129*
*gunelbagirbeyli@gmail.com*
*ORCİD İD 0009-0005-6009-8331*

***Açar sözlər:*** *Heydər Əliyev irsi, Mərkəzi Elmi Kitabxana, Heydər Əliyev və Azərbaycan dövlətçiliyi, rəqəmsallaşma*

***Ключевые слова:*** *Наследие Гейдара Алиева, Центральная научная библиотека**,** Гейдар Алиев и государственность Азербайджана, цифровизация*

***Keywords:*** *Heydar Aliyev's heritage, Central Scientific Library, Heydar Aliyev and Azerbaijani statehood, digitization*

**Xülasə:** Tezisdə Azərbaycanda kitabxana mədəniyyətinin inkişafı fonunda AMEA-nın Mərkəzi Elmi Kitabxanasında Azərbaycanın müstəqillik dövrü, görkəmli dövlət xadimi Heydər Əliyevin zəngin ictimai-siyasi irsinin rəqəmsallaşdırılması proseslərindən bəhs olunur. Bu irsi qorumaq, sistemləşdirmək və geniş ictimaiyyətə çatdırmaq məqsədilə yaradılan elektron informasiya resurslarını əhatə edən rəqəmsal platformalar haqqında məlumat verilir. Həmçinin Heydər Əliyev irsinin rəqəmsallaşdırılması ölkənin tarixi yaddaşının qorunması və gələcək nəsillərə ötürülməsi baxımından mühüm addım kimi qiymətləndirilir.

**Резюме:** В тезисе представлена информация о цифровых платформах, созданных в Центральной научной библиотеке НАНА для сохранения, систематизации и широкого распространения общественно-политического наследия выдающегося государственного деятеля Гейдара Алиева и независимого периода Азербайджана. Также подчеркивается, что цифровизация наследия Гейдара Алиева рассматривается как важный шаг в сохранении исторической памяти страны и передаче ее будущим поколениям.

**Summary:** The thesis provides information about the digital platforms created at the AMEA Central Scientific Library to preserve, systematize, and disseminate the rich socio-political heritage of the prominent statesman Heydar Aliyev and the period of Azerbaijan's independence. It also emphasizes that the digitization of Heydar Aliyev's heritage is considered an important step in preserving the country's historical memory and transmitting it to future generations.

**Giriş:** Müasir dövrdə informasiya texnologiyalarının inkişafı, biliklərin əldə olunması və yayılması prosesində yeni yanaşmaların formalaşmasına səbəb olmuşdur. Bu baxımdan, ölkənin tarixinin, milli liderlərin həyat və fəaliyyətinin öyrənilməsi üçün rəqəmsal resursların yaradılması və onların geniş ictimaiyyətə çatdırılması xüsusi əhəmiyyət kəsb edir. Bu baxımdan Müstəqil Azərbaycanın siyasi tarixi, Azərbaycan Respublikasının Ümummilli lideri Heydər Əliyevin zəngin siyasi irsinin tədqiqi və təbliği sahəsində Mərkəzi Elmi Kitabxananın (MEK) rolu mühüm əhəmiyyət daşıyır. MEK-in yaratdığı elektron informasiya sistemləri bu irsin sistemli şəkildə qorunmasına və istifadəyə təqdim edilməsinə şərait yaradır. MEK-in əsas məqsədlərindən biri ölkənin elm və təhsil ictimaiyyətini zəngin informasiya resursları ilə təmin etməkdir. Kitabxana bu missiyanı yerinə yetirərkən Heydər Əliyev irsinin öyrənilməsini prioritet sahələrdən biri kimi müəyyən etmişdir.

Bu zərurətdən irəli gələrək AMEA-nın Mərkəzi Elmi Kitabxanasında dünyaşöhrətli siyasi xadim Heydər Əliyevin zəngin irsinə, siyasi, diplomatik fəaliyyətinə həsr olunmuş ədəbiyyata oxucu-tədqiqatçı marağı və tələbatının yüksək səviyyədə ödəmək məqsədilə "Heydər Əliyev və Azərbaycan dövlətçiliyi" şöbəsinin əsası qoyulmuşdur. 2003-cü ildə təməli qoyulan şöbənin yaradılmasının təşəbbüskarı, MEK-ə rəhbərlik etmiş (2003-2014), görkəmli kitabxanaşünas alim, filologiya elmləri doktoru Aybəniz Əliyeva-Kəngərli vurğulamışdır ki, "*bu zəngin ədəbiyyatı bir yerə toplayaraq, gənc nəslə və dövlətçiliyimizin nəzəri, praktik problemləri ilə məşğul olan mütəxəssislərə çatdırmaq, şöbənin ümdə məqsədlərindən biridir və kitabxana Heydər Əliyevin xalqımızın rifahı və dövlətçiliyimizin möhkəmləndirilməsi naminə həyata keçirdiyi əvəzsiz fəaliyyətinin təbliğ etmək məqsədilə öz işini davam etdirir.*" [1, s.115]

Bu istiqamətdə Ulu öndərin müəllifi olduğu əsərlər, çıxışları, nitqləri, məqalələri, haqqında yazılmış ədəbiyyat toplanmış və sistemləşdirilmişdir. Bu resurslar həm ənənəvi, həm də elektron formada istifadəçilərə təqdim olunur.

Bu xüsusda yaradılmış elektron informasiya resursları Heydər Əliyev irsini müxtəlif aspektlərdən əhatə edən rəqəmsal platformalardan ibarətdir. Bu resurslar sistemi aşağıdakı istiqamətləri əhatə edir:

- **Elektron kataloq** – Heydər Əliyev haqqında nəşr olunmuş kitabların, məqalələrin və digər sənədlərin biblioqrafik məlumatları burada toplanır. İstifadəçilər istədikləri mövzu üzrə axtarış aparmaqla, materiallara sürətli çıxış əldə edə bilirlər.
- **Elektron kitabxana** – Burada Heydər Əliyev haqqında yazılmış monoqrafiyalar, məqalələr və digər elmi nəşrlər elektron formatda yerləşdirilib. Resurslara onlayn şəkildə daxil olmaq mümkündür.
- **Multimedia resursları** – sənədli filmlər və təqdimatlar vasitəsilə Ulu öndərin irsi daha geniş auditoriyaya çatdırılır.
- **Virtual sərgilər** – MEK tərəfindən təşkil edilən virtual sərgilər vasitəsilə Heydər Əliyev irsinin müxtəlif dövrlərini əks etdirən materiallar interaktiv formada təqdim olunur.

Kitabxanada istifadə olunan "İRBİS-64" proqram təminatı, sənədlərin elektron kataloqunun yaradılmasına və avtomatlaşdırılmış iş proseslərinin həyata keçirilməsinə imkan vermişdir. Bu sistem vasitəsilə AMEA-nın müxtəlif institutlarının kitabxanalarında da elektron kataloqların yaradılması təşviq edilmişdir. MEK-in təqdim etdiyi elektron informasiya sistemləri, tədqiqatçılar, müəllimlər və tələbələr üçün zəngin mənbə rolunu oynayır. Onlar Heydər Əliyev irsini dərindən öyrənmək, onun siyasi baxışlarını və dövlətçilik fəlsəfəsini analiz etmək imkanı əldə edirlər. Bu sistemlər həm də tarix, politologiya və ictimai elmlər üzrə elmi işlərin yazılmasında əhəmiyyətli rol oynayır.

**Nəticə:** Mərkəzi Elmi Kitabxanada yaradılmış elektron informasiya sistemləri Heydər Əliyev irsinin mühafizəsi, tədqiqi və gələcək nəsillərə ötürülməsi istiqamətində mühüm vasitələrdən biridir. Bu resurslar həm elmi ictimaiyyət, həm də geniş oxucu kütləsi üçün əlçatan olmaqla yanaşı, Ulu öndərin əvəzsiz xidmətlərinin ətraflı şəkildə öyrənilməsinə şərait yaradır. MEK-in bu sahədə fəaliyyəti, həmçinin ölkənin mədəni və tarixi yaddaşının rəqəmsal formatda qorunmasına töhfə verir.

## Ədəbiyyat

1. A.Əliyeva-Kəngərli. Müasir Azərbaycanda elmin informasiya təminatı və kitabxanalar / elmi red. A.Xələfov. - Bakı, Elm, 2007. – 397 s.